**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində Seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti həyata keçirən Mətbuat qrupunun iclasının**

**2 saylı P R O T O K O L U**

Bakı şəhəri 21 sentyabr 2013-cü il

**İştirak edirlər:**

1. Mərkəzi Seçki Komissiyasının üzvü, Mətbuat qrupunun rəhbəri Azər Cabir oğlu Tağıyev.
2. Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Musa oğlu Cavadov.
3. Mərkəzi Seçki Komissiyasının üzvü Almas Əlisultan qızı Qəhrəmanlı.
4. Mərkəzi Seçki Komissiyası Katibliyi Media və ictimai əlaqələr şöbəsinin müdiri Azər Tofiq oğlu Sarıyev.
5. AzərTAc- Dövlət Teleqraf Agentliyi – Xətai Əzizov
6. APA İnformasiya Agentliyi – Ramil Məmmədov
7. "Olaylar" İnformasiya Agentliyi – Elman Cəfərli

8. “Azərbaycan televiziya və radio verilişləri” Qapalı əhmdar Cəmiyyəti -Vaqif Həsənov

9. İctimai Televiziya və Radio Yayımları Şirkəti – Mehparə Quliyeva

10. “Lider” telekanalı – Anar Şükürov

11. “Azərbaycan” qəzeti – Elgün Mənsimov

12. “Yeni Müsavat” qəzeti-Fərahim İlqaroğlu (Qasımov)

13. “Kaspi” qəzeti – İlham Quliyev

14 . “Gündəlik teleqraf” qəzeti – Səxavət Həmidli

Gündəlik

1. **9 oktyabr 2013-cü ilə təyin edilmiş prezident seçkilərində İctimai Televiziyanın efirində namizədlərə ödənişsiz seçkiqabağı təşviqat aparmaları üçün 19 sentyabr 2013-cü ildə keçirilmiş dəyirmi masadakı qanun pozuntuları ilə bağlı məsələnin müzakirəsi**

**İclası Mərkəzi Seçki Komissiyasının üzvü, Mətbuat qrupunun rəhbəri Azər Tağıyev açaraq bildirir**: Sentyabrın 19-da İTV-də ödənişsiz əsaslarla verilmiş efir vaxtı çərçivəsində keçirilmiş dəyirmi masada seçki qanunvericliyinə və etik normalara zidd olan davranışlar müşahidə edilib. Əgər ehtiyac varsa, yenidən həmin dəyirmi masanın lent yazısına baxıla bilər.

**İştirakçılar**: Ehtiyac yoxdur. Hamı izləyib.

**A.Tağıyev**: Eyni zamanda, Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədov 20 sentyabr 2013-cü ildə Mərkəzi Seçki Komissiyasına müraciət etmiş və sentyabrın 19-da İctimai Televiziya ve Radio Yayımları Şirkəti tərəfindən "Xalq Seçir" adlı Dəyirmi Masada müzakirələr aparılarkən "Demokratik qüvvələrin Milli Şurası" seçicilərin təşəbbüş qrupu tərəfindən irəli sürülmüş qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin Seçki Məcəlləsinin 88-ci maddəsinin müvafiq bəndlərinin tələblərini pozmaqla təşviqat aparmasını, nəticədə Yeni Azərbaycan partiyasının namizədi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikası Konstitusiyasının 106-cı maddəsi ilə qorunan şərəf və ləyaqətinə, onun ailə üzvlərinin şərəf və ləyaqətinə toxunan ifadələrdən istifadə etməsini bildirmişdir. Əli Əhmədov həmçinin Cəmil Həsənlinin efir etikasına və ayrılmış təşviqat müddətinin məqsədlərinə uyğun olmayan, digər namizədlərin təşviqat aparmaq hüquqlarına mane olan qanunsuz hərəkətlər törətməsini bildirib və onun barəsində qanunla müəyyən olunmuş qaydada tədbirlərin görülməsini xahiş edir.

"Demokratik qüvvələrin Milli Şurası" təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülmüş Həsənli Cəmil Poladxan oğlu da həmin tarixdə müraciət edərək qeyd edilən Dəyirmi Masada prezidentliyə qeydə alınmış digər namizəd Hafiz Hacıyev və Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi Əli Əhmədov tərəfindən özünün şərəf və ləyaqətinin alçaldıldığını, habelə Hafiz Hacıyev tərəfindən onun namizədi olduğu seçicilərin təşəbbüs qrupunun

ayrı-ayrı üzvlərinin şərəf və ləyaqətini təhqir edildiyini, onların müxtəlif cinayətlərdə ittiham edildiyini, sosial, dini və irqi düşmənçilik yaradan ifadələr işlətdiyini, plastik su qabını ona tərəf atdığını, nəticədə ona ayrılmış efir vaxtının 1,5 dəqiqəsini istifadə edə bilmədiyini göstərərək bununla bagli müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Azərbaycan Respublikası İctimai Televiziya ve Radio Yayımları Şirkəti də həmin tarixdə MSK-ya müraciət edərək sözügedən Dəyirmi Masa iştirakçısı olmuş qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin təşviqat üçün ona ayrılmış pulsuz efir vaxtından istifadə edərkən digər iştirakçıların hüquqlarının pozulmasına səbəb olan qeyri-etik davranışı ilə Seçki Məcəlləsinin tələblərinə əməl etməməsinin nəzərə alınmasını xahiş etmişdir. Mətbuat qrupu baş vermiş hadisəyə, eyni zamanda, qeyd olunan müraciətlərə münasibətini bilriməlidir.

**Mehparə Quliyeva**: Müraciətdə qeyd olunanları mən də bölüşürəm. Bundan əlavə, o da qeyd olunmalıdır ki, namizəd Cəmil Həsənli verilişin aparıcısını da təhqir edib. Bəyəm o başa düşmür ki, əlavə efir vaxtının verilməsi, aparıcının yaxud İTV-nin səlahiyyətinə aid olan məsələ deyil?

**Azər Sarıyev**: Əlavə ödənişsiz efir vaxtının verilməsi MSK-naın səlahiyyətindədir. Həmin efir vaxtını da MSK verir. Bununla bağlı müraciət MSK-ya edilməlidir.

**Almaz Qəhramanlı**: Hafiz Hacıyev Cəmil Həsənliyə qarşı həm qanunverciliyin tələblərinə, həm də etik normalara zidd davranış nümayiş etdirib. Səlahiyyətli nümayəndə Əli Əhmədov Cəmil

Həsənlini saxta yolla əlillik alması barədə sənədin surətini göstərərək onu təxribata çəkib.

**Fuad Cavadov:** Burada qanun pozuntusu yoxdur. Cəmil Həsənli də ölkə başçısı, eyni zamanda namizəd olan İlham Əliyevin şərəf və ləyaqətini təhqir edən ifadələr işlətmişdir.

**Xətai Əzizov:** Elə etmək lazımdır ki, namizədlər bir də belə hallara yol verməsinlər. Onlara xəbərdarlıq edilməlidir.

**Azər Tağıyev:** Hesab edirəm ki, dəyirmi masada seçkiqabağı təşviqatla bağlı qanun pozuntusuna yol verilib. Ancaq bu hallar hazırda ekspert qrupu tərəfindən araşdırılır və araşdırmanın nəticəsinə uyğun olaraq məsələyə hüquqi müstəvidə qiymət veriləcəkdir.

Başqa təklifi olan var? Yoxdur. Təklif səsə qoyulur. Yekdilliklə qərara alınır:

**Məruzə nəzərə alınsın və seçkiqabağı təşviqatla bağlı qanun pozuntusuna yol vermiş şəxslər barəsində müvafiq tədbir görülməsinin zəruriliyi qeyd edilsin.**

| | |
|---|---|
| **Sədr** | **Azər Tağıyev** |
| **Katib** | **Azər Sarıyev** |